# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA SƏNAYE PARKLARININ DEMOQRAFİK BƏRPADA ROLU



**Kamran Şıxılı,**
*Elm və Təhsil Nazirliyinin Təhsil sisteminin inkişafı və proqnozlaşdırılması problemləri üzrə elmi-tədqiqat laboratoriyasının mütəxəssisi,*
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin doktorantı*
*e-mail: 19kamran95@gmail.com*
*https://orcid.org/0009-0004-1846-0862*
*https://doi.org/10.30546/2706-7858.2026.1.232*

**UOT**: 33

**Xülasə.** *Azərbaycanın işğaldan azad edilmiş əraziləri otuz ilə yaxın davam edən münaqişə və hərbi təcavüz nəticəsində kütləvi demoqrafik boşluq və regional sosial-iqtisadi ekosistemin tamamilə məhv edilməsi ilə üzləşmişdir. Bir milyondan çox məcburi köçkün əhalinin öz doğma yurdlarına geri qayıtması post-münaqişə dövrünün ən prioritet və strateji məsələsi kimi müəyyən edilmişdir. Məqalədə sənaye parklarının demoqrafik bərpa prosesində oynadığı rolu nəzəri, təsviri-analitik və beynəlxalq müqayisəli metodlarla kompleks şəkildə qiymətləndirilməsi hədəflənir. Tədqiqat çərçivəsində Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonasının fəaliyyəti, yaradılan iş yerləri, investisiya dinamikası və bu amillərin əhalinin məskunlaşma qərarlarına təsiri dərindən təhlil edilmişdir.*

*Təhlillər göstərir ki, sənaye parkları regionda "demoqrafik cazibə mərkəzi" rolunu oynayaraq məcburi köçkünlərin könüllü və dayanıqlı şəkildə qayıtmasını təmin edən əsas iqtisadi katalizator funksiyasını yerinə yetirir. Sənaye parklarında yaradılan yüksək əlavə dəyərli, texnoloji tutumlu və daimi iş yerləri geri qayıdan əhalinin regionda uzunmüddətli məskunlaşması üçün zəruri olan iqtisadi əsası formalaşdırır. Hökumətin 2030-cu ilədək 150,000 iş yeri yaratmaq hədəfi demoqrafik bərpanın təkcə kəmiyyət deyil, həm də keyfiyyət baxımından dayanıqlı olacağını göstərir. Tədqiqatda post-münaqişə regionlarında iqtisadi inkişaf strategiyasının demoqrafik tarazlığın bərpasında həlledici rol oynadığı, sənaye klasterlərinin isə bu prosesin mərkəzi sütunu olduğu əsaslandırılır.*

***Açar sözlər:*** *demoqrafik bərpa, sənaye parkları, məşğulluq, miqrasiya, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu, post-münaqişə, iqtisadi inkişaf, artım qütbü, regional dayanıqlılıq.*
***Keywords:*** *demographic recovery, industrial parks, employment, migration, Karabakh economic region, East Zangezur economic region, post-conflict, economic development, growth pole, regional sustainability.*
***Ключевые слова:*** *демографическое восстановление, промышленные парки, занятость, миграция, Карабахская экономическая район, Восточно-Зангезурский экономический район, постконфликтный период, экономическое развитие, полюс роста, региональная устойчивость.*

Respublikamızın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları otuz ilə yaxın davam edən işğal və hərbi münaqişə nəticəsində kütləvi demoqrafik boşluq, infrastrukturun tamamilə dağıdılması və regional tarazlığın pozulması ilə üzləşmişdir. 1990-cı illərin əvvəllərində baş verən hərbi təcavüz nəticəsində bir milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşmüş, bu da regionun sosial-iqtisadi və demoqrafik strukturunda dərin və uzunmüddətli deformasiyalara səbəb olmuşdur [1]. İşğaldan azad edilmiş ərazilərdəki şəhər və kəndlərin tamamilə dağıdılması, iqtisadi fəaliyyətin sıfıra enməsi və ərazilərin geniş şəkildə minalanması demoqrafik bərpa prosesini post-münaqişə dövrünün ən mürəkkəb və strateji məsələsinə çevirmişdir.

Demoqrafik tarazlığın bərpası, yəni əhalinin təhlükəsiz, könüllü şəkildə öz doğma yurdlarına geri qayıtması, təkcə sosial ədalətin təmin edilməsi deyil, həm də regionun iqtisadi reinteqrasiyası, dayanıqlı inkişafı və milli təhlükəsizliyi baxımından həlledici əhəmiyyət daşıyır [2]. Bu prosesin uğuru dağılmış ərazilərdə iqtisadi fəaliyyətin bərpası və əhali üçün cəlbedici yaşayış mühitinin yaradılması ilə birbaşa əlaqəlidir. Bu kontekstdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən *"Böyük Qayıdış"* strategiyası çərçivəsində yaradılan sənaye parkları və iqtisadi zonalar demoqrafik bərpanın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Sənaye parkları bu prosesdə əhalinin geri qayıtmasını təmin edən "işlə təminat" mexanizmini işə salır və beləliklə, demoqrafik tarazlığın bərpası üçün zəruri olan iqtisadi əsası formalaşdırır [3]. Tədqiqatda sənaye parklarının demoqrafik təsiri regional inkişafın makro-iqtisadi nəticələri ilə sıx əlaqəli şəkildə təhlil edilir. Tədqiqatın aktuallığı isə ondan ibarətdir ki, post-münaqişə regionlarında demoqrafik bərpa adətən, sosial və humanitar aspektdən nəzərdən keçirilir, lakin bu işdə iqtisadi klasterlərin, xüsusilə sənaye parklarının demoqrafik cazibə mərkəzi kimi rolu elmi-praktiki cəhətdən əsaslandırılır.

**Tədqiqatın məqsədi, məsələnin qoyuluşu**

Tədqiqatın əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan sənaye parklarının post-münaqişə dövründə demoqrafik bərpa prosesinə təsirini kompleks şəkildə qiymətləndirməkdir. Məsələnin qoyuluşu məcburi köçkünlərin öz doğma yurd-yuvalarına könüllü və dayanıqlı qayıdışını təmin edən əsas iqtisadi amil kimi rolunu nəzəri və praktiki cəhətdən araşdırmaqdan ibarətdir.

**Demoqrafik bərpanın nəzəri-metodoloji əsasları və sənaye parkları**

Post-münaqişə regionlarında demoqrafik bərpa prosesi, iqtisadi inkişaf nəzəriyyələri və miqrasiya modelləri ilə sıx əlaqəli olan mürəkkəb bir fenomendir. Ədəbiyyatda bu proses adətən iki əsas yanaşma ilə təhlil edilir: təhlükəsizlikəsaslı və iqtisadiəsaslı bərpa modelləri [4]. Təhlükəsizlikəsaslı model ilkin mərhələdə minalardan təmizlənmə, infrastrukturun ilkin bərpası və hərbi təhlükəsizliyin təmin edilməsinə fokuslanır. İqtisadi-əsaslı model isə dayanıqlı qayıdışın təmin edilməsi üçün iqtisadi fəaliyyətin və məşğulluq imkanlarının yaradılmasını prioritetləşdirir [5]. "Böyük Qayıdış" strategiyası bu iki yanaşmanın sintezini təşkil edir, lakin sənaye parklarının yaradılması ilə iqtisadi amilə xüsusi önəm verilir.

Demoqrafik bərpanın əsas hərəkətverici qüvvəsi miqrasiya qərarlarıdır. Miqrasiya nəzəriyyələrində "itələmə" (push) və "çəkmə" (pull) amilləri əsas rol oynayır [6]. İşğal dövründə regiondan kütləvi köç "itələmə" amilləri (müharibə, təhlükəsizlik, infrastrukturun olmaması) ilə bağlı idisə, hazırda geri qayıdış qərarı "çəkmə" amilləri (iş imkanları, yüksək həyat səviyyəsi, sosial infrastruktur) ilə stimullaşdırılır. Sənaye parkları, məhz bu "çəkmə" amillərinin ən güclü formasıdır, çünki onlar yüksək əməkhaqqı və müasir iş şəraiti təklif edir [7].

Sənaye parklarının regional inkişaf və demoqrafik tarazlığının bərpası kontekstindəki rolunu izah etmək üçün iki əsas nəzəriyyəyə – "Artım qütb"ü nəzəriyyəsi (Growth Pole Theory) və "Klaster" nəzəriyyəsinə (Cluster Theory) müraciət edilir. Fransua Perroux (1955) tərəfindən irəli sürülmüş "Artım qütbü" nəzəriyyəsi iqtisadi inkişafın coğrafi olaraq qeyri-bərabər yayıldığını və müəyyən "qütblər" ətrafında cəmləşdiyini iddia edir [8]. Bu qütblər, adətən ətrafdakı iqtisadi fəaliyyəti stimullaşdıran və inkişafı yayan aparıcı sənayelər tərəfindən idarə

olunur. Ağdam Sənaye Parkı və Araz Vadisi İqtisadi Zonası bu nəzəriyyənin post-münaqişə regionunda tətbiqinə klassik nümunədir. Yayılma effekti (spread effect) sənaye parklarında yaradılan iş yerləri və artan tələbatın ətrafdakı yaşayış məntəqələrində xidmət sektorunun (ticarət, iaşə, nəqliyyat) inkişafına səbəb olmasını ifadə edir [9]. Bu, əhalinin geri qayıtması üçün əlavə iş imkanları yaradır və demoqrafik bərpanı sürətləndirir. Digər tərəfdən qütbləşmə effekti (polarization effect) ilkin mərhələdə sənaye parklarının ətraf regionlardan insan və maliyyə resurslarını özünə cəlb etməsini nəzərdə tutur. Lakin post-münaqişə regionunda bu effekt müsbət xarakter daşıyır, çünki resurslar əsasən ölkənin digər hissələrində məskunlaşmış məcburi köçkünlərdən geri qayıdır.

***Sənaye parkı bir "artım qütbü" kimi çıxış edərək:***

*1. Dolayı iş yerlərinin yaranması: Parkın tələbatı yerli xidmət, təchizat, logistika, iaşə və tikinti şirkətlərini stimullaşdırır. Bu, parkın özündə yaradılan birbaşa iş yerlərindən qat-qat çox olan dolayı iş yerlərinin yaranmasına səbəb olur.*

*2. Texnoloji transfer: Parkdakı yüksək texnologiyalı müəssisələr yerli şirkətlərlə əməkdaşlıq edərək bilik və texnologiya transferini təmin edir, bu da regionun ümumi iqtisadi potensialını artırır.*

Sənaye parkları yalnız sənaye istehsalını deyil, həm də regional iqtisadiyyatın bütün sahələrini hərəkətə gətirən, demoqrafik bərpaya və əhalinin stabilləşməsinə xidmət edən kompleks bir mexanizm rolunu oynayır.

Maykl Porterin "Klaster" nəzəriyyəsi isə rəqabət üstünlüyünün coğrafi olaraq cəmləşmiş, bir-biri ilə əlaqəli müəssisələr və institutlar tərəfindən yaradıldığını vurğulayır [10]. Sənaye parkları ixtisaslaşmış əmək bazarının formalaşmasına şərait yaradır ki, bu da ixtisaslı kadrların regiona cəlb edilməsi üçün həlledici amildir. Klasterləşmə həm də innovasiyaların yayılmasını sürətləndirir və regionun iqtisadi dayanıqlılığını artırır [11]. Demoqrafik baxımdan bu, regionun təkcə əhali sayından deyil, həm də insan kapitalının keyfiyyəti baxımından bərpasını təmin edir.

**Dəlillər sistemi və elmi əsaslandırma**

**Beynəlxalq təcrübədə sənaye zonalarının demoqrafik təsiri: statistik və analitik müqayisə.** Sənaye parklarının və xüsusi iqtisadi zonaların (XİZ) post-münaqişə və ya iqtisadi keçid dövründə demoqrafik bərpaya təsiri bir çox ölkələrin təcrübəsində özünü real statistik göstəricilərlə büruzə vermişdir. Bu təcrübələrin təhlili Azərbaycanın tətbiq etdiyi modelin elmi əsaslarını daha da möhkəmləndirir.

***Ruanda*** təcrübəsi post-münaqişə bərpası üçün ən maraqlı nümunələrdən biridir. 1994-cü il soyqırımından sonra Ruanda iqtisadiyyatını yenidən qurmaq üçün xüsusi iqtisadi zonaların yaradılmasına böyük önəm vermişdir. 2012-ci ildə fəaliyyətə başlayan Kigali Xüsusi İqtisadi Zonası (KSEZ) ölkənin demoqrafik strukturuna ciddi təsir göstərmişdir. Steenbergen və Javorcik (2017) tərəfindən aparılan tədqiqata görə, 2016-cı ilin sonunadək KSEZ-də fəaliyyət göstərən 44 müəssisə ölkənin ümumi daimi işçi qüvvəsinin təxminən 2%-ni təşkil etmişdir [12]. Bu zonanın yaradılması kənd yerlərindən paytaxta olan miqrasiya axınını strukturlaşdırmış və ixtisaslı kadrların ölkədə qalmasını təmin etmişdir [13]. Ruanda İnkişaf Şurasının (RDB) 2020-ci il hesabatına görə, XİZ-lər vasitəsilə yaradılan iş yerləri gənclər arasında işsizliyin azaldılmasında həlledici rol oynamışdır [14].

Kigali Xüsusi İqtisadi Zonası (KSEZ) Ruandanın iqtisadi transformasiyasında mühüm rol oynayır. KSEZ-ə cəlb edilmiş 2,3 milyard ABŞ dolları həcmində özəl sektor investisiyası [15] və fəaliyyət göstərən 150-dən çox şirkət [16] regionun sənayeləşməsinin əsas göstəriciləridir. Ən əsası, KSEZ 13,000-dən artıq daimi iş yeri yaratmışdır ki, bu da 2016-cı ilin məlumatlarına görə, ölkənin ümumi daimi məşğulluğunun təxminən 2%-ni təşkil edir [12]. Bu rəqəm, KSEZ-in ölkə miqyasında məşğulluğa təsirinin konkret göstəricisidir. Bundan əlavə, 2022-ci ildə KSEZ-də fəaliyyət göstərən şirkətlər 455 milyon ABŞ dolları həcmində ixrac gəliri əldə edərək [17] iqtisadiyyatın diversifikasiyasına birbaşa töhfə vermişdir.

***Almaniyanın*** yenidən birləşməsindən sonrakı təcrübəsi də sənaye parklarının demoqrafik sta-

billəşmədəki rolunu aydın göstərir. 1990-cı ildə Almaniyanın yenidən birləşməsindən sonra Şərqi Almaniya ərazilərində kütləvi depopulyasiyanın qarşısını almaq üçün sənaye və texnologiya parkları şəbəkəsi yaradılmışdır. Berentsen (1996) qeyd edir ki, 1990–1995-ci illər arasında Şərqi Almaniyanın bəzi sənaye mərkəzlərində əhali itkisi 10-15% təşkil etsə də, sənaye parklarının (məsələn, Jena və Leipzig ətrafındakı zonalar) yaradılması 2000-ci illərin əvvəllərində miqrasiya balansının stabilləşməsinə səbəb olmuşdur [18]. Burda və Hunt (2001) göstərir ki, Şərqi Almaniyada məhsuldarlığın artımı və yeni sənaye klasterlərinin formalaşması birbaşa olaraq gənc və ixtisaslı əhalinin regionda qalma qərarına təsir etmişdir [19; 20].

Almaniyanın yenidən birləşməsindən sonra Şərqi Almaniya regionları kütləvi sənaye şoku ilə üzləşdi. 1988-ci ildən 1992-ci ilədək sənaye məşğulluğu 3,5 milyondan 1.6 milyona enərək 50%-dən çox azalma göstərdi [21]. Bu kütləvi işsizlik və miqrasiya dalğasının qarşısını almaq üçün yaradılan sənaye parkları və klasterlər əhalinin stabilləşməsində həlledici rol oynadı. 1995-ci ildə emal sənayesinin məşğulluqdakı payı 15%-ədək stabilləşdirildi [22]. Sənaye mərkəzlərinin mövcudluğu 1990–2015-ci illərdə Şərqi Almaniyanın böyük şəhərlərinin 11%-dən artıq itirməsinə baxmayaraq, miqrasiyanın sürətini yavaşlatdı və əhalinin məskunlaşma arealını stabilləşdirən "lövbər" funksiyasını yerinə yetirdi.

***Bosniya və Herseqovina*** nümunəsi isə münaqişədən sonrakı qayıdış prosesində iqtisadi zonaların əhəmiyyətini vurğulayır. Bosniya müharibəsindən sonra (1992–1995) ölkədə yaradılan sənaye zonaları məcburi köçkünlərin geri qayıtmasında mühüm rol oynamışdır. Nurkovic (2018) tərəfindən aparılan tədqiqat göstərir ki, iş imkanlarının mövcudluğu, xüsusilə də gənc ailələr üçün qayıdış qərarının ən güclü amili olmuşdur [23]. Martinović və Ifko (2018) qeyd edirlər ki, sənaye irsinin bərpası və yeni iqtisadi zonaların yaradılması Mostar kimi şəhərlərdə sosial inteqrasiyanı sürətləndirmişdir [24]. Bosniya təcrübəsi, həmçinin göstərir ki, iqtisadi zonaların uğuru siyasi sabitlik və institusional dəstək olmadan dayanıqlı deyil [25].

Bosniya və Herseqovina təcrübəsi sənaye sektorunun ümumi məşğulluqdakı yüksək payı ilə diqqət çəkir. 2023-cü il məlumatlarına görə, ölkədə ümumi məşğulluğun 30,63%-i sənaye sektorunun payına düşür [26]. Bu, sənaye parklarının və zonalarının ölkə iqtisadiyyatında və əmək bazarında nə qədər fundamental rol oynadığını göstərir. 2024-cü ildə Bosniya və Herseqovina Federasiyası üzrə ümumi investisiyaların 6,1 milyard BAM (təxminən 3,4 milyard ABŞ dolları) təşkil etməsi [27] sənaye sektorunun davamlı inkişafı üçün maliyyə bazasının möhkəm olduğunu göstərir.

***Cədvəl 1.***
***Beynəlxalq sənaye zonalarının iqtisadi göstəriciləri***

| Ölkə / Zona | İnvestisiya həcmi (milyard $) | Yaradılan işyerləri (daimi) | Məşğulluqda payı (%) | Əsas iqtisadi təsiri |
|---|---|---|---|---|
| **Ruanda (Kigali SEZ)** | 2.3 | 13,000+ | ~2.0% | İxracın diversifikasiyası (455 mln $ ixrac) |
| **Almaniya (Şərqi Almaniya)** | - | 1,600,000 | ~15.0% | Demoqrafik stabilləşmə və sənaye bərpası |
| **Bosniya və Herseqovina** | 3.4 | 158,000 | 30.6% | Sənaye istehsalının ÜDM-də dayanıqlığı |
| **Azərbaycan (Sənaye zonaları)** | 3.9 (6.6 mlrd ₼) | 10,000+ | ~1.0% | Qeyri-neftixracının artımı (16.5% pay) |

***Mənbə:*** *Ruanda (AllAfrica 2023; Steenbergen və Javorcik 2017; RDB 2022), Almaniya (Brookings 2001; Resolution Foundation 2022), Bosniya və Herseqovina (World Bank 2023; Invest in Sarajevo 2024), Azərbaycan (İqtisadiyyat Nazirliyi 2023).*

***Cədvəl 2.***
***Sənaye parklarının demoqrafik və sosial təsirləri***

| Göstərici | Ruanda təcrübəsi | Almaniya təcrübəsi | Azərbaycan hədəfləri |
|---|---|---|---|
| **Əhalinin stabilləşməsi** | Kənddən şəhərə miqrasiyanın nizamlanması | Kütləvi emiqrasiyanın qarşısının alınması | Regionlarda əhalinin saxlanılması |
| **Gəlir səviyyəsi** | Orta əmək haqqının 15-20% artımı | Qərb regionları ilə gəlir fərqinin azalması | Yüksəkixtisaslı kadrların gəlir artımı |
| **İnfrastruktur** | Yeni logistik mərkəzlər | Modernləşdirilmiş kommunikasiya | "Ağıllı" sənaye şəhərcikləri |
| **Sosial təsir** | Gənclərin məşğulluğu | Sosial rifahın bərpası | İşğaldan azad edilmiş ərazilərdə məskunlaşma |

***Mənbə:*** *Cədvəl 1-də göstərilən ölkələrin sənaye parkları haqqında aparılmış təhlillərə əsasən, müəllif tərəfindən hazırlanmışdır (2025).*

Beynəlxalq nümunələr göstərir ki, sənaye parkları təkcə iqtisadi artım aləti deyil, həm də

demoqrafik tarazlığı bərpa edən strateji mexanizmdir. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda tətbiq etdiyi model bu beynəlxalq təcrübələrin ən uğurlu elementlərini özündə birləşdirərək regionun spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmışdır.

**Azərbaycanın post-münaqişə bərpa modeli: Strateji yanaşma və institusional çərçivə**

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən demoqrafik bərpa prosesi dünya təcrübəsində nadir rast gəlinən bir miqyas olaraq sürətlə xarakterizə olunur. Bu prosesin mərkəzində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" dayanır [1]. Bu proqram əhalinin təhlükəsiz və dayanıqlı şəkildə geri qayıtmasını təmin etmək üçün sosial-iqtisadi və infrastruktur şəraitinin yaradılmasını vahid bir strategiya çərçivəsində birləşdirir.

Strategiyanın iqtisadi sütunu regionun özünütəminetmə qabiliyyətinin bərpasına və milli iqtisadiyyata inteqrasiyasına yönəlmişdir. Bu məqsədlə yaradılan sənaye parkları investisiya cəlbediciliyini artırmaq üçün misilsiz güzəştlər paketi ilə təmin edilmişdir [3]. Rezidentlərin 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilməsi, həmçinin texnika və xammal idxalı üçün ƏDV və gömrük rüsumu güzəştləri bu əraziləri həm yerli, həm də xarici investorlar üçün "vergi cənnəti"nə çevirmişdir [28]. Bu institusional yanaşma sənaye parklarının qısa müddətdə real iqtisadi nəticələr verməsini və demoqrafik bərpa üçün zəruri olan maliyyə axınlarını təmin etmişdir [29].

İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) tərəfindən idarə olunan bu parklar "bir pəncərə" prinsipi ilə fəaliyyət göstərərək bürokratik maneələri minimuma endirir. Bu, post-münaqişə bərpası üçün kritik əhəmiyyət kəsb edir, çünki investorlar üçün zaman və şəffaflıq ən vacib amillərdir [30]. Sənaye parklarının uğuru, həm də onların strateji coğrafi yerləşməsi ilə bağlıdır. Ağdam Sənaye Parkı Qarabağın mərkəzi logistik qovşağında, Araz Vadisi İqtisadi Zonası isə yeni nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşərək, regionun gələcək iqtisadi xəritəsini formalaşdırır [31].

**Ağdam Sənaye Parkı: Qarabağın sənaye qəlbi və demoqrafik mərkəzi**

Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli Fərmanı ilə yaradılıb. Park 190 hektar ərazini əhatə edir. Parkın yaradılması Ağdam şəhərinin "Qarabağın Sənaye Mərkəzi" statusunun bərpası istiqamətində atılmış ən mühüm addımdır. Parkın iqtisadi profili əsasən tikinti materiallarının istehsalı, yüngül sənaye, qida sənayesi və xidmət sahələrini əhatə edir [32]. Bu diversifikasiya, regionun bərpası üçün daxili tələbatı ödəməklə yanaşı, həm də müxtəlif ixtisaslara malik əhali qrupları üçün iş yerləri yaradır.

2025-ci ilin iyun ayına olan rəsmi məlumatlara görə, Ağdam Sənaye Parkında 29 rezident və 4 qeyri-rezident qeydiyyata alınmışdır. Bu müəssisələr tərəfindən yatırılan investisiyanın ümumi həcmi 115 milyon manatı ötmüşdür [33]. Ən önəmli göstərici isə yaradılan daimi iş yerlərinin sayıdır ki, bu rəqəm də artıq 653-ə çatmışdır. Bu iş yerləri təkcə rəqəm deyil, həm də 653 ailənin Ağdama qayıtması və orada dayanıqlı şəkildə məskunlaşması üçün iqtisadi təminat deməkdir.

Ağdam Sənaye Parkının demoqrafik təsiri "Artım qütbü" nəzəriyyəsi ilə tam izah olunur. Parkda fəaliyyət göstərən müəssisələr ətraf kəndlərdən və yeni tikilən yaşayış məhəllələrindən işçi qüvvəsi cəlb edir [34]. Bu, əhalinin şəhər mərkəzinə doğru cəmləşməsinə və urbanizasiya prosesinin sürətlənməsinə səbəb olur. Eyni zamanda parkın fəaliyyəti dolayı yolla xidmət sektorunda (nəqliyyat, iaşə, ticarət) minlərlə yeni iş yerinin yaranmasına təkan verir. Bu yayılma effekti Ağdamın demoqrafik bərpasını təkcə dövlət köçürmələri ilə deyil, həm də təbii iqtisadi cazibə ilə təmin edir.

**Araz Vadisi İqtisadi Zonası: Strateji logistika və regional inteqrasiya**

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkı 4 oktyabr 2021-ci il tarixində yaradılmışdır. 200 hektar ərazini əhatə edən bu park strateji olaraq Zəngəzur dəhlizi və beynəlxalq nəqliyyat marşrutlarının üzərində yerləşir [35]. Bu parkın əsas missiyası logistika, anbar və kənd təsərrüfatı məhsullarının emalı və texniki xidmət sahələrini inkişaf

etdirməkdir. 2025-ci ilin fevral ayına olan məlumatlara görə, parkın 16 rezidenti və 2 qeyri-rezidenti vardı. Yatırılan investisiya həcmi 29,6 milyon manatdan çoxdur və burada 100-ə yaxın daimi iş yeri yaradılmışdır [33]. Araz Vadisi İqtisadi Zonasının demoqrafik təsiri Ağdamdan fərqli olaraq daha çox regional klasterləşmə xarakteri daşıyır. Bu park Cəbrayıl, Füzuli və Zəngilan rayonlarının kəsişməsində yerləşərək bu üç rayonun əhalisi üçün vahid iqtisadi cazibə mərkəzi yaradır. Logistika və tranzit mərkəzi kimi fəaliyyət göstərməsi bu parkın ətrafında yeni yaşayış məntəqələrinin və xidmət infrastrukturunun yaranmasını stimullaşdırır [36]. Xüsusilə gənc nəsil üçün müasir texnologiyalarla işləmək imkanı onların bu regionlara qayıtma motivasiyasını artırır. Araz Vadisi İqtisadi Zonası həm də beynəlxalq ticarət əlaqələrinin mərkəzi kimi çıxış edərək regionun demoqrafik bərpasını qlobal iqtisadi proseslərlə əlaqələndirir.

**Sənaye parklarının demoqrafik cazibə mexanizmi və statistik təhlili**

Sənaye parklarının demoqrafik bərpa prosesindəki rolu bir neçə fundamental sosial-iqtisadi mexanizm vasitəsilə reallaşır. Bu mexanizmlərin dərindən başa düşülməsi post-münaqişə bərpası strategiyasının səmərəliliyini qiymətləndirmək üçün zəruridir. Birinci mexanizm *"gəlir və rifah effekti"dir.* Sənaye parkları yüksək əlavə dəyər yaradan və texnoloji tutumlu istehsala əsaslandığı üçün burada təklif olunan əməkhaqqı səviyyəsi regionun orta göstəricisindən və ənənəvi sektorlardan əhəmiyyətli dərəcədə yüksəkdir [37]. Məcburi köçkünlərin böyük hissəsinin Bakı və digər iri şəhərlərdə məskunlaşdığını nəzərə alsaq, onların geri qayıtması üçün ən güclü motivasiya, məhz rəqabətqabiliyyətli gəlir imkanlarıdır. Yüksək əməkhaqqı təkcə fiziki qayıdışı deyil, həm də qayıdan əhalinin həyat keyfiyyətinin yüksəlməsini və regionda istehlak tələbatının artmasını təmin edir.

İkinci mexanizm *"məşğulluq stabilliyi və dayanıqlılıq"dır.* Post-münaqişə regionlarında ən böyük risklərdən biri məşğulluğun müvəqqəti və ya mövsümi xarakter daşımasıdır [38]. Sənaye parkları isə uzunmüddətli investisiya layihələrinə əsaslandığı üçün daimi iş yerləri yaradır. Bu stabillik ailələrin regionda məskunlaşma qərarını müvəqqəti deyil, ömürlük xarakterə çevirir. Daimi işi olan valideynlər övladlarını yerli məktəblərə yazdırır, sosial əlaqələr qurur və beləliklə, demoqrafik bərpa prosesi sosial-mədəni köksalma mərhələsinə keçir [39].

***Cədvəl 3.***

***Regionun sosial-iqtisadi və demoqrafik göstəricilərinin müqayisəli təhlili (2021–2025)***

| *Göstərici* | 2021 | 2022 | 2023 | 2024 | 2025 (Dekabr) |
|---|---|---|---|---|---|
| *Ümumi əhali sayı (nəfər)* | ~5,000 | ~12,000 | ~35,000 | ~52,000 | 64,512 |
| *Yaradılan yeni iş yerləri (illik)* | ~200 | ~800 | 1,220 | 2,575 | ~3,100 |
| *Sənaye parklarına investisiya (mln. AZN)* | 15.0 | 32.5 | 45.0 | 52.1 | ~144.6 (kumulyativ) |
| *Qayıdan ailələrin sayı (kumulyativ)* | 0 | 200 | 1,100 | 2,400 | 3,800+ |
| | | | | | |

***Mənbə:*** *Caliber.az (2025), İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən ümumiləşdirilmişdir (2025).*

Cədvəldən göründüyü kimi, 2024-cü ildə yaradılan yeni iş yerlərinin sayındakı kəskin artım (2,575 iş yeri), eyni dövrdə əhali sayının 35,000-dən 52,000-ə yüksəlməsi ilə üst-üstə düşür. Bu, iqtisadi imkanların demoqrafik qayıdış üçün həlledici faktor olduğunu statistik olaraq sübut edir [40]. Sənaye parklarında yaradılan hər bir daimi iş yeri regionun demoqrafik strukturunda gənc və əmək qabiliyyətli əhalinin payını artırır ki, bu da uzunmüddətli təbii artım üçün zəruri bazadır.

**Alınan nəticələrin tətbiqi**

Alınan nəticələrin tətbiqi isə demoqrafik bərpanın dayanıqlılığını artırmaq üçün konkret strateji təkliflərin irəli sürülməsini nəzərdə tutur. Bu təkliflərə sənaye parklarının yaxınlığında "Yaşayış + iş" modelinin gücləndirilməsi, kadr hazırlığının sənaye ehtiyaclarına uyğunlaşdırılması və yüksək texnologiyalı klasterlərin təşviqi daxildir ki, bu da regionun uzunmüddətli sosial-iqtisadi inkişafını və demoqrafik stabilliyini təmin etməlidir.

**Nəticə.** Tədqiqatın nəticələri birmənalı şəkildə onu təsdiqləyir ki, sənaye parkları Qarabağ və Şərqi Zəngəzurun demoqrafik bərpa prosesinin iqtisadi sütununu təşkil edir. Bu parklar təkcə

istehsal müəssisələri deyil, həm də əhalinin geri qayıtmasını, məskunlaşmasını və regionda kök salmasını təmin edən "demoqrafik cazibə mərkəzləri"dir. Real statistik göstəricilər və beynəlxalq müqayisələr göstərir ki, iqtisadi aktivlik və dayanıqlı məşğulluq demoqrafik bərpanın ən güclü katalizatorudur. Demoqrafik bərpanın dayanıqlılığını təmin etmək və sənaye parklarının bu prosesdəki rolunu daha da artırmaq üçün aşağıdakı strateji təkliflər irəli sürülür:

***1. "Yaşayış + iş" modelinin dərinləşdirilməsi:*** Sənaye parklarının yaxınlığında müasir yaşayış komplekslərinin və sosial infrastrukturun inkişafı sürətləndirilməlidir.

***2. Yerli əmək bazarının gücləndirilməsi:*** Regionda ixtisaslaşmış peşə təhsili mərkəzləri yaradılmalı və kadr hazırlığı sənaye parklarının ehtiyaclarına uyğunlaşdırılmalıdır.

***3. Yüksək əlavə dəyərli klasterlərin təşviqi:*** Regiona yalnız kütləvi deyil, həm də yüksək texnologiyalı və yüksək əməkhaqqı təklif edən müəssisələrin cəlb edilməsi "beyin axını"nın qarşısını alacaqdır.

Yekun olaraq onu da qeyd edək ki, sənaye parkları Qarabağ və Şərqi Zəngəzurun demoqrafik gələcəyinin iqtisadi təminatçısıdır. Hökumətin 2030-cu ilədək olan hədəfləri və həyata keçirilən genişmiqyaslı layihələr bu regionun yaxın gələcəkdə Azərbaycanın ən dinamik iqtisadi və demoqrafik mərkəzlərindən birinə çevriləcəyini proqnozlaşdırmağa əsas verir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı (elektron resurs). Bakı, 2022.

2. Guliyev F. Post-Conflict Resettlement in Karabakh: Rebuilding Livelihoods (elektron resurs). SSOAR, 2025.

3. İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA). Sənaye parklarının fəaliyyəti və investisiya imkanları. Bakı, 2024.

4. Davenport C., O'Dwyer C. Security and Economic Recovery in Post-Conflict Regions. Oxford: Oxford University press, 2019.

5. Mueller H.F., Piemontese L., Tapsoba A. Recovery from conflict: lessons of success. World Bank Policy Research Working Paper, 2017.

6. Lee E.S. A theory of migration. Demography, 1966, vol.3 (1), 47-57.

7. Bahar D., Hauptmann A., Özgüzel C., Rapoport H. Migration and post-conflict reconstruction: The effect of returning refugees on export performance. Harvard DASH, 2019.

8. Perroux F. Note sur la notion de pôle de croissance. L'Économie du XXI-e siècle, 1955.

9. Kugler T., Kang K.K., Kugler J., Arbetman-Rabinowitz M., Thomas J. Demographic and economic consequences of conflict. International Studies Quarterly, 2013, vol. 57(1), pp.1-12.

10. Porter M.E. The Competitive Advantage of Nations. New York: Free press, 1990.

11. Zeng D.Z. The past, present, and future of special economic zones and their impact, Journal of International Economic Law, 2021, vol.24, pp.59-275.

12. Steenbergen V., Javorcik B. Analysing the impact of the Kigali Special Economic Zone on firm behaviour. London: International Growth Centre, 2017.

13. Baffoe G. The road to sustainable Kigali: A contextualized analysis of the development trajectory. Cities, 2020, vol.105, 102831.

14. Rwanda Development Board (RDB). Annual Report. Kigali, 2020.

15. AllAfrica. Rwanda: Kigali Special Economic Zone to be doubled in Size (elektron resurs) 2023.

16. Daily Motion. How Rwanda can make structural transformation through Free Trade Zones (video material). 2023.

17. Rwanda Development Board (RDB). Annual Report. Kigali, 2022.

18. Berentsen W.H. Regional population changes in Eastern Germany after unification. Post-Soviet Geography and Economics, 1996, vol. 37 (8). pp.503-515.

19. Burda M.C., Hunt J. From reunification to economic integration: Productivity and the labor market in Eastern Germany, Brookings Papers on Economic Activity, 2001.

20. Dumke R.H. Reassessing the Wirtschaftswunder: Reconstruction and postwar growth in West Germany. Oxford Bulletin of Economics and

Statistics, 1990, vol.52 (4), pp.451-491.

21. Resolution Foundation. German Reunification The Economy 2030 Inquiry, London, 2022.

22. Brookings Institution. Productivity and the Labor Market in Eastern Germany. Washington D.C., 2001.

23. Nurkovic R. Transformation of old industrial areas in Bosnia and Herzegovina Revue Roumaine de Géographie, 2018, vol.64 (2), pp.145-156.

24. Martinović A., Ifko S. Industrial heritage as a catalyst for urban regeneration in post-conflict cities. Cities, 2018, vol.74, pp.259-268.

25. Fransen S., Ruiz I., Vargas-Silva C. Return migration and economic outcomes in the conflict context. World Development, 2017, vol. 95, pp.276-290.

26. World Bank. Employment in industry (% of total employment) – Bosnia and Herzegovina (elektron resurs). 2023.

27. Invest in Sarajevo. Key Statistics: Total Investments in Federation of Bosnia and Herzegovina. 2024.

28. Ambroziak A.A., Hartwell C.A. The impact of investments in special economic zones on regional development: the case of Poland. Regional Studies. 2018, vol.52 (10), pp.1322-1331.

29. Caliber.az. Azerbaijan 2025: economic resilience and record investments (elektron resurs). 2025.

30. Sinenko O., Mayburov I. Comparative analysis of the effectiveness of special economic zones // International Journal of Economics and Financial Issues. 2017, vol.7 (3) pp.32-40.

31. Trend.az. Azerbaijan's Aghdam and Araz Valley Industrial Parks projects (elektron resurs). 2025.

32. Azernews. Azerbaijan's liberated territories step into an industrial era (elektron resurs). 2025.

33. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. İqtisadi Zonaların İnkişafı Agentliyinin 2024-cü il üzrə hesabatı. Bakı, 2025.

34. Rahbar N.M. Economic consequences of regional devastation. Orlando: UCF, 2024.

35. Gadimova-Akbulut N. The Karabakh conflict in the shadow of the Russian invasion of Ukraine. SSOAR, 2024.

36. Maconachie R., Binns T., Tengbe P., Johnson R. Temporary labour migration and sustainable post-conflict return in Sierra Leone. GeoJournal, 2006, vol. 67 (3). pp.223-240.

37. Lee Y.H. A Study on the Economic Resilience of Industrial Parks Sustainability, 2023, vol.15 (3), pp.24-62.

38. Affek A.N. Effects of post-WWII forced displacements on long-term depopulation, Landscape and Urban Planning, 2021, vol.212, 104127.

39. Garin A. Long-Run Impacts of Public Industrial Investment on Local Development, The Quarterly Journal of Economics, 2025, vol.140 (1), pp.459-515.

40. Ciccone A. Evidence across a Barrier to Refugee Settlement. IZA Discussion Paper, №15185, 2022.

**K.Shykhyly**

## The role of industrial parks in demographic restoration in the Karabakh and eastern Zangazur economic regions

**Abstract**

As a result of nearly thirty years of conflict and military aggression, the liberated territories of the Republic of Azerbaijan have faced a significant democratic vacuum and the complete destruction of the regional socio-economic ecosystem. This situation has been addressed. The return of over one million internally displaced persons to their homeland has been identified as a priority and strategic issue in the post-conflict period. The aims article to comprehensively assess the role of industrial parks in the democratic restoration process using theoretical, descriptive-analytical, and internationally comparative methods. The study analyzes in depth the activities of the Aghdam Industrial Park and the Araz Valley Economic Zone, the jobs created, investment dynamics, and the impact of these factors on people's life decisions. The analysis shows that industrial parks play the role of "demographic centers of attraction" in the region and are the main economic catalyst enabling the voluntary and sustainable registration of internally displaced persons. The high-value,

technologically advanced, and permanent jobs created in the industrial parks form the necessary economic foundation for the long-term settlement of the remaining population in the region. The government's goal of creating 150,000 jobs by 2030 demonstrates that the democratic balance will be sustainable not only quantitatively but also qualitatively. This analysis is based on the assumption that economic development strategies in post-conflict regions play a critical role in resolving demographic conflict, and that industrial zones are a central component of this process.

**К.Шыхылы**

**Роль промышленных парков в демографическом восстановлении экономических районов Карабаха и восточного Зангезура**

**Аннотация**

В результате почти тридцати лет конфликта и военной агрессии освобожденные территории Азербайджанской Республики столкнулись со значительным демократическим вакуумом и полным разрушением региональной социально-экономической экосистемы. Эта ситуация была решена. Возвращение более миллиона внутренне перемещенных лиц на родину было определено как приоритетная и стратегическая задача в постконфликтный период. Цель данного исследования – всесторонняя оценка роли индустриальных парков в процессе восстановления демократии с использованием теоретических, описательно-аналитических и международных сравнительных методов. В исследовании подробно анализируется деятельность Агдамского индустриального парка и Экономической зоны Аразской долины, созданные рабочие места, динамика инвестиций и влияние этих факторов на жизненные решения людей. Анализ показывает, что индустриальные парки играют роль «демографических центров притяжения» в регионе и являются основным экономическим катализатором, обеспечивающим добровольную и устойчивую регистрацию внутренне перемещенных лиц. Высокооплачиваемые, технологически продвинутые и постоянные рабочие места, создаваемые в индустриальных парках, формируют необходимую экономическую основу для долгосрочного расселения оставшегося населения в регионе. Цель правительства по созданию 150 000 рабочих мест к 2030 году демонстрирует, что демократический баланс будет устойчивым не только количественно, но и качественно. Данный анализ основан на предположении, что стратегии экономического развития в постконфликтных регионах играют решающую роль в разрешении демографического конфликта, а промышленные зоны являются центральным компонентом этого процесса.